*Mehriban Eyvazova,*

*Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin baş mütəxəssisi*

*e-mail:* m.eyvazova@arti.edu.az

*Günel Fərəcova,*

*Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin mütəxəssisi*

*e-mail:* g.ferecova@arti.edu.az

# *Ümumi təhsil məktəblərində peşəyönümü işin təşkili*

***Açar sözlər:*** *peşə istiqaməti, peşə seçimi, məktəb, peşə təmayüllü sinif, şagird, təhsil, karyera.*

Peşə sözü "müəyyən bir təhsil yolu ilə əldə edilən sistemli bilik və bacarıqlara əsaslanan, insanlar üçün faydalı məhsul istehsal edərək və yaxud xidmət göstərərək və bunun müqabilində gəlir gətirən sistemli iş" kimi başa düşülür. Sistemli işin düzgün qurulması nəticəsində əldə edilən uğurlar insana həm iş, həm də şəxsi həyatında xoşbəxtlik şansı verir və öz sosial rifahının yaxşılaşdırılmasına kömək edir. İnsan həyatındakı ictimai nüfuzun artırılması üçün verilən ən mühüm qərarlardan biri olan peşə seçimi getdikcə əhəmiyyət kəsb edərək onun bütün həyatını əhatə edir.

Ümumi təhsil pilləsini bitirən məzunlar şəxsi xüsusiyyətlərinə uyğun peşə seçimi etdikdə gördüyü işlərdən zövq alaraq karyeralarında uğur qazanmalarına nail olurlar. Bunun üçün ilk növbədə şəxsin yaşadığı ətraf mühit, həyat tərzi və şərait onun seçdiyi peşəyə uyğun olmalıdır ki, seçim etmək daha asan olsun. Bu baxımdan təhsilini başa vurmuş məzunlar peşə seçimi ilə bağlı qərarsız olmamaları üçün peşəyönümü işinə daha çox diqqətlə yanaşmalıdırlar.

Məzunlar ətrafdakıların təzyiqi, ailəsinin istəyi və əldə edəcəyi gəlirə əsaslanaraq qərar verib çox da uğur qazana bilməyəcəkləri peşə seçimi edirlər. Onların seçdikləri qeyri-real peşə "dönülməz" yol olduğundan, həm şəxsin xoşbəxtliyinə, həm də ölkə iqtisadiyyatında yaratdığı mənfi təsiri inkar etmək olmaz. Peşə seçimi düzgün aparılmazsa, müəyyən bir müddət keçəndən sonra məzunlar seçimdən narazı qalaraq, peşə və ixtisas sahəsini dəyişmək və yaxud başqa sahələrə üz tutmaq məcburiyyətində qalırlar. Bu isə onların çətinliklərlə qarşılaşaraq yeni peşə seçməsi üçün həm əlavə vaxt, həm də vəsait itkisi yaradır. Bunların baş verməməsi

üçün məzunlar vaxtında düzgün seçim edərək öz sevdiyi peşəni seçməli, maraq və həvəslə öyrənməli, həmin sahənin peşəkarı olmalıdırlar. Peşə seçimi zamanı məzunlar öz bilik, bacarıq və tələblərinə uyğun daha da böyük uğurlara imza atmaq üçün diqqətli olmalı, seçmək istədikləri peşələr haqqında bütün incəlikləri öyrənmək üçün tədqiqat aparmalı, məlumatlar toplamalıdırlar. Peşələr haqqında tədqiqat aparmaq ona görə lazımdır ki, əmək bazarı sabit qalmır və daim dəyişir. Buna görə də məzunlar əmək bazarının hazırkı və perspektiv tələbinə uyğun gələcəkdə işsizlik və ya başqa sahələrdə işləmək məcburiyyəti ilə üzləşməmək üçün peşə seçimi zamanı daha çox ehtiyac duyulacaq peşə sahələrinə olan tələbatı nəzərə almalıdırlar. Bu proses, məzunların maraqlarına, şəxsi keyfiyyətlərinə, qabiliyyətlərinə, fizioloji xüsusiyyətlərinə və cəmiyyətin iqtisadi ehtiyaclarına uyğun olaraq peşə istiqamətində düzgün seçim etmələrinə köməklik edir. İnkişaf edən iqtisadiyyat, texnologiyanın sürətli tərəqqisi və əmək bazarında baş verən dəyişikliklər, məktəblərdə peşəyönümü işinin daha da təkmilləşdirilməsini və müasir dövrün tələblərinə uyğunlaşdırılmasını zəruri edir. Peşəyönümü işin məktəblərdə effektiv təşkili, gənclərin düzgün qərar verməsinə, öz potensiallarını daha yaxşı realizə etmələrinə və cəmiyyətə faydalı mütəxəssislər kimi yetişmələrinə şərait yaradır.

Məktəblərdə peşəyönümü işin təşkili zamanı erkən yaşlarda aparılan peşə seçiminə təsir edən amilləri müəyyənləşdirmək üçün aşağıda verilmiş addımlara diqqət yetirmək məqsədəuyğun hesab olunur.

**Peşəyönümü işin aparılması üzrə addımlar:**

*İnteraktiv üsullar:* Müxtəlif iş formatlarından istifadə: təlimlər, rol oyunları, keyslər, layihə fəaliyyətlərinin təşkil olunması.

*Mütəxəssis dərsləri:* Müxtəlif sahələr üzrə peşəkarların məktəbdə praktiki dərslər keçmələri üçün dəvət edilməsi.

*Müəssisələrə ekskursiyalar:* Müxtəlif ixtisaslar üzrə mütəxəssislərin hansı iş prosesində işlədiyini görmək üçün istehsalat obyektlərinə, ofislərə, laboratoriyalara səfərlərin təşkil edilməsi. Uşaq və gənclər üçün müxtəlif düşərgələr, peşələr üzrə klubların təşkil edilməsi.

*Təhsil sərgi-yarmarkaları:* Məktəblilərin universitet, kollec və şirkət nümayəndələri ilə ünsiyyət qura biləcəyi tədbirlərin təşkil edilməsi.

*Onlayn platformalar:* Əmək bazarının cari vəziyyəti və ən çox tələb olunan peşələr haqqında məlumat toplanması, onlayn peşələr üzrə mütəxəssislər ilə məsləhətləşmələrin aparılması üçün müasir texnologiyalardan istifadə edilməsi.

*Psixoloji testlər:* Şagirdlərin bilik, bacarıq və səriştələri, maraqları, sağlamlıq vəziyyəti, sosial-psixoloji xüsusiyyətlərin müəyyənləşdirilməsi üçün psixoloji testlərin istifadə edilməsi.

*Peşəkar testlər:* Müxtəlif fəaliyyət növlərində özünü sınamağa imkan verən qısa praktik tapşırıqların verilməsi.

*Məsləhət verilməsi:* Şagirdlərə seçmək istədiyi peşə sahəsi üzrə təhsil alacağı müəssisə ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməsinə köməklik edilməsi.

*Səhv seçim riskini azaltmaq:* Şüurlu şəkildə peşə seçən şagirdin bu sahədə uğur qazanma ehtimalının daha da yüksəldilməsi.

*Valideynlər və işəgötürənlərlə əməkdaşlıq:* Birgə işləməklə məktəblilər üçün vahid dəstək sisteminin yaradılmasına kömək edilməsi.

***Valideynin övladına peşə seçimində dəstəyi***

*Güvənli mühit yaradın:* Övladını mühakimə etmədən öz düşüncə və hisslərini ifadə etməsinə icazə verməli. Peşə seçimində uşağa təzyiq göstərməməli və yarana biləcək münaqişənin qarşısını almalı.

*Məlumat verin:* Müxtəlif peşələr, təhsil və karyera imkanları barədə informasiya verməli və seçdiyi peşənin müsbət və mənfi cəhətləri haqqında müzakirə aparmalı.

*Hobbiləri ilə maraqlanın:* Övladının asudə vaxtlarında hansı işlərlə məşğul olmağı xoşladığına diqqət yetirməli.

*Maraqlarını dəstəkləyin:* Gələcək peşəni seçərkən övladının şəxsi keyfiyyətlərini, hobbi və istedadını nəzərə almalı, həmin peşə sahəsi üzrə öyrənmək istədiyi fəaliyyətlərin inkişaf etdirilməsində köməklik göstərməli.

*Mütəxəssisdən kömək istəyin:* Əgər peşə seçimində fikir ayrılığı yaranıb çətinlik çəkilirsə bu zaman məktəb psixoloqundan və ya peşəkar mütəxəssisdən məsləhət alınmalı.

*Öz fikrinizi tətbiq etməyin:* Övladının qərarlarına hörmətlə yanaşmalı, peşə seçimi etmə hüququ verməli.

*Sərgiləri, muzeyləri və müəssisələri birlikdə ziyarət edin:* Övladının dünya görüşünü genişləndirməyə və müxtəlif fəaliyyət sahələri haqqında fikirlər formalaşdırılmasına köməklik göstərməli. Övladında hansısa bir peşəyə erkən yaşda maraq yaranıbsa, ədəbiyyat, dərslər, internet və s. resurslar vasitəsilə bu marağın qoruyub saxlanmasına imkan yaratmalı.

*Fərqli peşələri müzakirə edin:* Öz peşələri və dostlarının peşələri haqqında müzakirə aparmalı.

**Şagirdlərin peşə seçimi zamanı diqqət etməsi lazım olan amillər:**

*Özünü tanıma:* Maraq, hobbi, qabiliyyət, dəyər, yumşaq bacarıq və meyllərini müəyyənləşdirmək üçün özlərini qiymətləndirməli.

*Peşə aləmini araşdır:* Müxtəlif fəaliyyət sahələri, işin təsviri, təhsil, təlim, əmək haqqı, peşəyə aid tələb və perspektiv imkanları haqqında məlumat əldə etməli.

*Mütəxəssislərlə görüş:* Maraqlandığı peşələr üzrə mütəxəssislərlə görüşməli, hansı iş prosesində işlədiyini görmək üçün istehsalat obyektlərinə, ofislərə, laboratoriyalara səfər etməli. Məlumatlandırıcı müsahibələr keçirən mütəxəssisləri tapmaq üçün onlayn platformalardan istifadə etməli.

*Onlayn sınaq testlər:* Onlayn psixoloji testlər və praktiki tapşırıqlar vasitəsilə müxtəlif fəaliyyət növlərində özünü sınayaraq qiymətləndirməli.

*Qərar qəbul et:* Bilik, bacarıq və öz daxili aləminin təhlilinə əsaslananaraq və özünə ən çox məmnunluq gətirəcəyini düşündüyü peşəni seçərək düzgün qərar verməli.

*Öz bacarıqlarını inkişaf etdir:* Karyera planlaşdırmağı və hədəflər qoymağı öyrənməli.

Yuxarıda qeyd edilən addımlar üzrə şagirdlərin fərdi ehtiyacları, maraqları, dəyərləri, şəxsi xüsusiyyətləri, spesifik və ümumi qabiliyyətləri, psixoloji amillər, yaşadığı bölgənin xüsusiyyətləri, bazarda tələb-təklif balansı və iş imkanları nəzərə alınaraq gələcəkdə karyeralarını uğurla planlaşdırmaqda kömək edəcəkdir.

Peşəyönümü işi təhsil müəssisələrində şagirdlərə gələcək peşələrini əsaslı şəkildə seçməkdə kömək etməyə yönəlmiş bir sistemdir. Bu sistemin məqsədi şagirdlərin maraq, qabiliyyət və meyllərini müasir əmək bazarının tələbləri ilə təhsili əlaqələndirməkdir. Ümumi təhsil məktəblərində peşəyönümü işin təşkili ibtidai təhsil səviyyəsindən başlayaraq şagirdlərin müxtəlif peşə sahələri ilə yaxından tanış olması və bu sahələrin iqtisadiyyatda oynadığı rolu haqqında informasiyanın verilməsi, ilkin bacarıqların formalaşdırılması olduqca önəmli məsələlərdən biridir. Beləliklə, ümumi təhsil məktəblərində aparılan peşəyönümü işin həyata keçirilməsi böyük əhəmiyyət kəsb etdiyi üçün ömürboyu davam etməlidir.

Şagirdləri peşə seçiminə və əmək fəaliyyətinə hazırlamaq üçün ümumi təhsil məktəblərində müəyyən peşələrin öyrədilməsi məqsədilə, peşə təmayüllü siniflərin təşkili ciddi əhəmiyyət kəsb edir. Burada əsas məqsəd ümumi orta təhsil bazasında şagirdlərə müxtəlif peşə ixtisasları haqqında informasiya verərək onların peşə təhsilinə hazırlanmasıdır. Həmçinin şagirdlərin peşələr üzrə bilik və səriştələrə yiyələnməsi, inkişaf etdirilməsi yolu ilə əmək bazarının tələbinə uyğun ixtisaslı kadrlar formalaşdırılmaqla yanaşı şagirdlərə ilkin sahibkarlıq bacarıqları aşılayaraq gələcəkdə peşə sahibi kimi öz iş yerlərini qurmaqda dəstək olmaqdır. Şagirdlərin təhsil müddətində peşə vərdişlərinə yiyələnməsi texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, ömürboyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi keçirmək və ətraf mühitə fəal inteqrasiya olunmaq deməkdir.

2019-2020-ci tədris ilində ümumi təhsil müəssisələrinin X-XI siniflərində Təhsil Nazirliyinin dəstəyilə peşə təmayüllü siniflər yaradılmışdır. PTS-də təşkil olunan məktəblərdə 4 istiqamət üzrə “Xidmət, təmir-tikinti, kənd təsərrüfatı və İKT” profillərini

əhatə edən 19 ixtisas üzrə tədris aparılır. Hazırda “Peşə təmayüllü siniflər” respublika üzrə 2024-2025-ci tədris ilində 251 məktəb, 447 sinif, 8940-dən çox şagird sayını əhatə edir.

PTS-də tədrisin təşkili ümumtəhsil fənləri ilə yanaşı, müxtəlif peşə profil istiqamətlərini əhatə edən modullar üzrə əsas səriştələrin mənimsənilməsi yolu ilə həyata keçirilir. Peşə ixtisasların fəaliyyətlərini özündə cəmləşdirən modullar şagirdlərdə əmək bazarının tələbatını nəzərə alaraq nəzəri bilik və praktiki səriştələri formalaşdırır.

PTS-in təşkil edildiyi məktəblərdə ixtisas üzrə nəzəri təlimin keçirilməsi üçün nəzərdə tutulan tədris otağı kompüter, printer, proyektor və internet və s. invertarlarla təmin olunmuşdur. İxtisasın praktiki hissəsini mənimsətmək məqsədilə emalatxana zəruri alət və avadanlıqlarla təchiz olunmuş, kənd təsərrüfatı profilinin tədrisi üçün isə təcrübə sahəsi ayrılmışdır. Şagirdlər peşə təhsili müəssisələrinin təlim-istehsalat, təsərrüfat sahələrinə, müxtəlif peşə sahələri üzrə işəgötürənlərlə əməkdaşlıq çərçivəsində ayda bir dəfədən az olmayaraq təcrübə səfərlərinə və ya ekskursiyaya cəlb olunurlar. Həmin əməkdaşlığın məqsədi şagirdlərin özlərini müxtəlif fəaliyyətlərdə sınamaq şansı və onlara maraqlı olan peşələrin incəlikləri haqqında: məsələn, maraq göstərdikləri peşə üzrə hansı təhsil səviyyəsi, peşəyə verilən tələb, inkişaf perspektivləri, işin müsbət və mənfi cəhətləri, bu sahədə (peşə, ixtisas) fəaliyyət göstərənlərin əmək haqları və s. kimi mövzular barəsində həmin peşə sahibləri ilə ünsiyyət quraraq məlumatlar əldə etməklərinə şərait yaratmaqdır. Şagirdlər gələcəkdə seçmək istədikləri peşə ilə təhsil aldıqları fənlər arasında əlaqə gördükdə həmin fənlərə qarşı maraqları artır və daha da yaxşı oxumağa həvəslənirlər. Bundan əlavə PTS şagirdlərin ixtisası öyrənmələrinə dəstək olan kiçik layihələr, sərgi-satış yarmarkaları, açıq qapı, infotur, sosial layihə, ekoloji layihələr və s. kimi həvəsləndirici tədbirlər təşkil edərək həyata keçirir. Ümumi təhsil məktəbinin digər sinif şagirdlərini də bu tədbirlərə dəvət edərək, onların maraq, şəxsi xüsusiyyəti, bacarığı və qabiliyyətlərinə uyğun istək yaradaraq müxtəlif ixtisas və ya peşələrə istiqamətləndirir. Şagirdlər əmək fəaliyyətinə başlamaq üçün tələb olunan minimal bacarıqların formalaşdırılması ilə bərabər karyera planlaşdırmasında sərbəst seçim və ömürboyu təhsil imkanları haqqında məlumatlar əldə etmiş olurlar. Peşə təmayüllü sinifləri bitirən şagirdlər tam orta təhsil haqqında attestat almaqla yanaşı, peşə istiqamətinin adı göstərilməklə iki sertifikat əldə edirlər. Bundan sonra şagirdlər İxtisas üzrə peşə təhsili müəssisələrində təhsilini davam etdirməklə əmək bazarına ixtisaslı kadr kimi daxil olurlar.

Şagirdlər ixtisas seçərək düzgün peşəyə yiyələnmələri baxımından peşəyönümü işin təşkili üzrə maarifləndirmə xarakterli təlimlərin də böyük əhəmiyyəti vardır. Bu məqsədlə, 2024-cü ilin fevral-mart aylarında Məktəbin İnkişaf Planı (MİP) reallaşdırılan 227, 238, 18, 38, 51, 162, 154, 91, 35, 75, 159, 111, 276, 284, 301, 178, 242, 260, 265 nömrəli ümumi təhsil məktəblərində VIII və IX sinif şagirdlərinə “Peşə seçiminin əhəmiyyəti” mövzusunda interaktiv təlim keçirilib. Təlim Təhsil İnstitutunun “Əlaqələndirmə” və “Peşə və ömürboyu təhsilin proqramları” şöbəsinin birgə

əməkdaşlığı ilə təşkil olunub. Təlimçi qismində ARTİ-nin "Peşə və ömürboyu təhsilin proqramları" şöbəsinin əməkdaşları Mehriban Eyvazova, Günel Fərəcova, Gülnar Tahirli, Xəyalə Səftərova, Səlimə Quliyeva iştirak edib. Təlimin əsas məqsədi şagirdləri peşə və yüksək texniki peşə təhsili müəssisələrində tədris edilən ixtisaslar barədə və YTP təhsil səviyyəsi üzrə məzun olduqdan sonra təhsilini davam etdirmək üçün ali məktəblərə imtahansız qəbul olma qaydaları haqqında maarifləndirməkdir. Şagirdlərə peşə və ixtisasın fərqi, peşə təhsilinin insan həyatındakı rolu, peşə seçiminə təsir edən amillər, düzgün peşə seçimində diqqət ediləcək əsas məqamlar, formal, qeyri-formal və informal təhsil alma üsulları, dual təhsil sistemi, əmək bazarı və karyera haqqında məlumatlar verərək gələcəkdə peşə seçmələri istiqamətində məsləhətlər verilmişdir. Təlim prosesində şagirdlərə peşə məktəbləri məzunlarının müxtəlif peşə sahələrindəki nailiyyətlərini əks etdirən mövzular barədə videoçarxlar nümayiş etdirilib. İnteraktiv şəkildə keçirilən təlimdə şagirdlərə peşələrin xüsusiyyətləri haqqında qrup tapşırıqları verilmişdir. Təqdim olunan qrup tapşırığının məqsədi şagirdlərə peşələri tanıtma və onların xüsusiyyətləri haqqında qısa təsəvvür yaratmaq idi. Qrup işinin təqdimatı zamanı peşə xüsusiyyətləri haqqında geniş məlumat verən qrup üzvlərinə sonda təlimçilər tərəfindən stimullaşdırıcı hədiyyələr təqdim olunmuşdur.

## *Nəticə*

Düzgün qurulmuş peşəyönümü işin təşkili modeli gənc nəslin uğurlu və peşəkar fəaliyyətə hazırlanması üçün ən yaxşı peşə seçimini əvvəlcədən məntiqi ardıcıllıqla xəritələşdirərək, həmin peşəni parametrləri üzrə inkişaf etdirir və optimal nəticə əldə etmə imkanı yaradır.

Peşəyönümü işi məktəbin, ailənin və şagirdin özünün birgə aparacağı bir işdir və bu işin təşkili üzrə istiqamətləndirilən şagirdlər həmyaşıdlarından daha tez seçim edərək qərar verə bilirlər. Valideynlər və müəllimlər də şagirdləri peşə seçiminə yönləndirərkən onların maraqlarına, istedadlarına və dəyərlərininə uyğun seçim etmələrində dəstək olmalıdırlar. Yeniyetmələrə məntiqli şəkildə öz yollarını seçməkdə kömək etmək onların şəxsi inkişafına və dəyişən dünyaya uğurlu uyğunlaşmasına töhfə verəcəkdir.

Düzgün seçilməyən peşə şagirdin psixoloji vəziyyətinə, şəxsi inkişafına və sosial mühitinə mühüm təsir göstərərək karyerasında uğursuzluğa gətirib çıxarır.

***Peşəyönümü işin təşkilində aşağıda verilən təkliflərə diqqət edilməsi məqsədəuyğundur:***

- Xüsusi psixoloji testlərdən istifadə edərək şagirdlərin maraq, qabiliyyət, meylləri və şəxsi xüsusiyyətləri aşkarlanaraq ilkin diaqnoz təyin etməli.
- Xüsusilə IX və XI sinif şagirdləri arasında peşə seçimində qərarsız olan şagirdlər müəyyən edilməli və onların məqsədlərinə hörmət edilərək dəstək verilməli.
- Məktəb psixoloqu və ya müəllimi şagirdə maraqlarını anlamağa, test nəticələrini təhlil etməyə və əsaslandırılmış seçimlər etməyə kömək etməli.
- Peşə seçimi ilə bağlı şagirdlər və valideynlər üçün seminarlar təşkil edilməli.

• Şagirdlərin hissləri, düşüncələri və münasibətləri nəzərə alınaraq, peşə seçimi ilə bağlı istiqamətləndirilməsi barədə valideynlər məlumatlandırılmalı.
• Məqsədi olmayan şagirdlərin istedadı üzə çıxarılmalı, onlara peşələr haqqında ətraflı məlumat verilərək kömək edilməli.
• Şagirdlərin öz istedadlarını kəşf etmələri üçün tədbirlər təşkil edilməli.

***İstinadlar***


*(Azərbaycan dilində)*

1. Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili (Metodik vəsait) Azərbaycan Respublikasının Təhsil İnstitutu Bakı-2021.
2. "Peşə, İxtisas Seçimi" Müseyib İlyasov (Yeniyetmə və gənclər üçün elmi - metodik vəsait) Bakı-2015.
3. Peşə Təhsili: Effektiv Təcrübələr üçün Bələdçi, İmel.S. 2018.

*(İngilis dilində)*

4. Antoniu E. Career planning process and its role in human resource development / Antoniu E. // Annals of the University of Petroşani, - Economics, 2010, Volume 10(2), p. 13-22.
5. Ayriza Y. Exploring Children's Career Interests and Knowledge Based on Holland's Theory / Ayriza Y., Triyanto A., Setiawati F.A. [ et. al.] // International Journal of Instruction, - 2020, Volume 13(2), p. 643662. http://www.e-iji.net/dosyalar/iji_2020_4_40.pdf
6. Hiebert B. Career Development: The Role of Guidance and Counselling in Fostering an Increased Range of Educational and Career Alternatives. / B.Hiebert, W.A.Borgen, K.Schober, - TVETipedia, 2010. - p. 8. https://unevoc.unesco.org/up/Career_Development.pdf
7. Improving Vocational Education and Training in Schools: A Global Perspective https://www.oecd.org/education/improving-vocational-education-and-training-in-schools.pdf